# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 14** **Bakı şəhəri, 14 yanvar 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 205 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2021-ci il 17 dekabr tarixli 3051 nömrəli Sərəncamının 2.2-ci bəndinin və "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli 2965 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 noyabr tarixli 205 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 826; 2002, № 10, maddə 637; 2003, № 9, maddə 523; 2005, № 8, maddə 780; 2006, № 6, maddə 563, № 11, maddə 998; 2007, № 9, maddə 924; 2008, № 4, maddə 303, № 10, maddə 939; 2011, № 4, maddə 362; 2015, № 12, maddə 1578; 2016, № 4, maddə 828; 2017, № 5, maddə 970, № 8, maddə 1605; 2018, № 3, maddə 605, № 6, maddə 1355; 2019, № 2, maddə 366, № 8, maddə 1453) ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2022.- 18 yanvar.- S. 5.